*K. İmanov*

# ÜMUMDÜNYA KİTAB VƏ MÜƏLLİFLİK HÜQUQU GÜNÜ VƏ AZƏRBAYCAN MÜƏLLİFLİK HÜQUQU TARİXİNDƏN

Kitab və müəlliflik yaranma anından bir-biri ilə ayrılmaz əlaqədə, daimi təmasda olan və bir-birini tamamlayan anlayışlar, məfhumlardır. Əslində isə müəlliflik hüququ əsər anlayışı ilə bağlı olduğundan onun tarixi daha qədimdir, insan mədəniyyətinin və biliklərin uzaq keçmişindən bəhrələnən məhsuldur. Volterin kitablarla bağlı sözləri tam mənada müəlliflik hüququna da aid edilə bilər: "Bunlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə hamıya məxsus olur".

Müəlliflik hüququnun tarixi "müəlliflik" anlayışından irəli gəlir. Bu uzun yol əsrlər boyu ibtidai icma, təbii anonim (adsız), tanrılaşdırılmış təxəllüs mərhələlərini keçmiş və nəticədə şəxsi müəlliflik səviyyəsinə çatmışdır. Antik zamanlarda yazının kəşfi, ieroqlifik yazının əlifba yazısına çevrilməsi şəxsi müəlliflik dərketməsini təsdiqlədi. Elə bu səbəbdən də tam haqlı olaraq, müəlliflik hüququnun başlanğıcları antik zamanlardan hesablanız. Həmin ənənə orta əsrlərdə daha da zənginləşdi, artıq fiksə edilmiş folklor deyil, öz müəlliflərinin adlarını bu günə qədər bizə çatdırmış yazılı əsərlər də qeydə alınmağa başladı. Azərbaycanın Orta əsr müəllifləri - aşıqlar müəllifliyi təsdiqləyən və bütün Şərqdə qəbul olunmuş orijinal forma kəşf etmişdilər. Əsər yaradıcısının həqiqi və ya poetik adı şer-mahnının son sətrinə salınmaqla tapşırma yaradılırdı. Əslində bu yenilik müəllif hüququnun səmərəli qorunma formasına çevrilmişdi. Həqiqətən, aşıq poeziyasının tarixi müəllif hüquqlarının pozulmasını və plagiatı tanımır. Tapşırmanın özbaşına dəyişdirilməsi, yaxud təhrif olunması adi hüquq-adət tərəfindən qorunurdu, təmin edilirdi və ictimaiyyət məhkəməsinə verilirdi. Bu gün Tasit və Herodotun, Arximed və Tusinin tarixə, coqrafiyaya və digər təbii elmlərə aid şəxsi müəlliflik əsərləri müəllif hüququnun qorunması nümunələrindəndir. Homerin "İliada"sı, Horatsinin "Poeziya sənəti" və digər nümunələri də misal gətirmək olar.

Azərbaycanda kağız istehsalının inkişafı VII-XII-ci əsrlərdə əlyazma nəşrlərin geniş yayılmasına səbəb oldu. "Kitabi Dədəm Qorqud"un əlyazmaları artıq həmin axtlardan yazılı şəkildə tanınmağa başladı, onun bir sıra sonrakı əlyazmaları (XV əsr) bu günə qədər də Drezden və Vatikan kitabxanalarında saxlanılır. Xətib Təbrizinin, Həbibullah Gəncəvinin, Marağayinin, Naxçıvaninin, Xaqaninin, Beyləqaninin, Məhsəti Gəncəvinin, Nizaminin və digərlərinin müəlliflik hüququnun qorunması ilə müşayiət edilən əlyazmaları bizim günlərə qədər gəlib çatmışdır. Dünyanın ən zəngin kitabxanalarında, o cümlədən Parisin Milli kitabxanasında Təbərinin "Qurani - Kərimin şərhi" (1220-1225 illər), Londonda Nizaminin "Sirlər xəzinəsi"nin (1239 il) əlyazmaları bu günə qədər qorunub saxlanmışdır. Ümumiyyətlə, Füzuli əsərlərinin 800 əlyazma nüsxəsi, Nizami "Xəmsə"sinin isə 792 əlyazma nüsxəsi dünyanın ən

məşhur muzey və kitabxanalarının yaraşığı kimi qiymətləndirilir. Şəxsi hüquqlarla yanaşı, Azərbaycan müəlliflərinin əmlak hüquqlarının qədim dövrlərlə səsləşən qorunması da nəzərə çarpır. Təbii ki, sərbəst bazar münasibətlərinə qədər müəlliflərin iqtisadi haqları o illərdə hökmdarlar tərəfindən tə"min olunurdu. Qay Mesenatdan başlayan mesenatçılıq hesabına yaradıcılıq nümünələri kimi Qərbdə Vergili, Horatsi, Marsial və digərlərinin adlarının çəkilməsi kifayətdir. Azərbaycanda isə Şirvanşahlar III Manuçöhr və I Axsitan dövründəki Fələki və Xaqani kimi şairlərin yaradıcılığını, Həliullahın köməyi ilə fəlsəfəçi və alim Səid Yəhya Bakuvinin tədqiqatlarını, "Xosrov və Şirin" poemasının yaradılmasına görə Qızıl Arslanın Nizamiyə verdiyi hədiyyəni və s. xatırlatmaq yerinə düşərdi.

Fikir verək, indiki dillə deməli olsaq, sifarişlə yaradılan ilk müəlliflik əsərlərinin də ənənəsi Şərqdə qoyulub. Firdovsinin "Şahnamə"sini Sultan Mahmud Qəznəvi, Nizaminin "Leyli və Məcnun" poemasını isə Şirvanşah I Axsitan sifariş etmişlər. Beləliklə, müəllif-hüquq sahəsində Azərbaycanın qədim və zəngin tarixi vardır. Bəllidir ki, müasir müəlliflik hüququnun formalaşması isə məhz XV əsrdə kitab nəşri və tipoqrafiya işinin ixtirası ilə bağlıdır. Qutenberqin kəşfi müəllifliyi çap formasında kütləyə çatdırma imkanını yaratdı. Əslində isə kitab nəşrinə olan marağı əqli ehtiyacları təmin edən XV əsrdə yaranan və kitabı əmtəə vasitəsinə çevirən bazar münasibətləri tərəfindən stimullaşdırıldı. O zamanlar Venetsiya Respublikasında geniş miqyasda kitablar dərc olunurdu. Ağqoyunlu və Səfəvi Azərbaycan dövlətlərinin rəhbərlərinin fəal xarici əlaqələri sayəsində bir sıra Azərbaycan müəlliflərinin əsərləri də kitab şəklində çıxdı. Misal üçün, 1248-ci ildə N. Tusi tərəfindən yazılmış Həndəsə və cəbr üzrə dərslik (əslində Orta Şərq və Asiya dövlətlərində XIX-cu əsrə qədər ən yaxşı dərslik) 1598-ci ildə yenidən Mediçi mətbəəsində həyat üzü gördü və latın dilinə tərcümə olunandan sonra 1657-ci ildə Londonda da nəşr edildi.

Səfəvilər Azərbaycan dövlətində XVIII-ci əsrdən başlayaraq, əvvəl şriftli kitab nəşri, sonralar isə Təbrizdə litoqrafiya üsulu ilə kitab nəşri özünə geniş yol açdı və ana dilimizdə ilk nəşrimiz Füzulinin "Leyli və Məcnun"u oldu. Beləliklə, artıq 5-çi əsrdir ki, müəlliflik hüququ və kitab dünyada birgə, yanaşı addımlayırlar. Bu cütlüyün müasir nüfuzu cəmiyyətin intellektuallaşmasında və mədəniyyətin zənginləşməsindəki rolu ilə izah edilir. Müəllif hüququ əqli mülkiyyətin ən vacib, mürəkkəb və dəyərli elə bir hissəsidir ki, onun qorunması və idarə edilməsi ilə dünya miqyasında iki böyük Beynəlxalq Təşkilat - 160-a yaxın üzvü olan ÜƏMT-nın Bern Konvensiyası və digər sazişlər vasitəsilə və YÜNESKO-nun 80-dən artıq üzvü olan "Müəllif hüquqları haqqında" Ümumdünya Konvensiyası məşğul olur.

Bunlardan YUNESKO özünün 25 oktyabr - 16 noyabr 1995-ci il tarixində keçirilmiş 28-ci sessiyasında 23 aprelin Ümumdünya Kitab və Müəlliflik hüququ günü elan edilməsi barədə qərar verib.

Həmin bayramla əlaqədar Azərbaycan Respublikasında artıq üç ildir ki tədbirlər keçirilir və bu sahəyə aid tədbirlər seminar - disskusiyalarla tamamlanır. YUNESKO-

nun məlumatına əsasən 23 aprel tarixi İspaniya əyaləti Kataloniya ilə bağlıdır və Müqəddəs Georgi günü kimi səciyyələnir. Həmin gün hər hansı satılan kitaba ənənəvi olaraq bir qızılgül qoşulurdu. Aydındır ki, 23 aprel gününün bayram kimi qeyd edilməsi üçün digər əsaslı səbəblər də mövcuddur. Bir sıra məşhur yazıçı və şairlərin anadan olma və ya vəfat etmə günü (Migel de la Servantesin, Vilyam Şekspirin, Moris Dryüonun, Vladimir Nabokovun, Azərbaycanın məşhur sərkərdəsi, artilleriya üzrə dərsliklərin müəllifi general Şıxlinskinin) bu tarixlə bağlıdır.

YUNESKO-nun İNTERNET-dəki WEB-saytında bayramın qeyd edilməsi ilə bağlı gözəl bir kəlam vardır: "Kitab və oxumaq həmişəki kimi vacibdirlər. Bunlar mətnin müəllifi tərəfindən virtual aləmlə (kainatla) interaktiv dialoq yaranması alətləridir və yaranan intellektual təsəvvürlər unikal, hər hansı oxucu təxəyyülündən asılılıqdadır". Müəlliflik hüqunun qorunması ilə əsər yaradıcılarını stimullaşdırmaq və oxucuları oxumağa cəlb etmək məqsədi ilə YUNESKO hər il 2000-dən artıq adda nəşrlər buraxır, yeganə sayılan Beynəlxalq Tərcümələr Biblioqrafiyasını (100 ölkəni təmsil edən və müəllif haqqında, onun hansı əsəri, hansı dilə və kim tərəfindən tərcümə edilməsini işıqlandıran kataloq) aparır, Ümumdünya Müəlliflik hüququ haqqında Konvensiyaya başçılıq edir.

Azərbaycanın müasir müəllif-hüquq dairəsi çox maraqlı və mürəkkəb bir sistemdir. "Hər kəsin əqli mülkiyyət hüququ vardır və müəlliflik hüququ qanunla qorunur". Azərbaycan Respublikasının yeni Konstitusiyasından götürülən bu sözlər (30-cu maddə) Azərbaycan rəhbərliyinin gənc müstəqil dövlətimizin qurulmasında bu sahənin vacib və prioritet olduğunu təsbit edir. Həqiqətən, demokratik hüquqi sivilizasiya normalarına uyğun dövlət quruculuğunda əqli mülkiyyətə, yaradıcılığa, əqli əməyə ictimai münasibət çox vacib atributlardan biridir. Müəllif-hüquq sahəsində son illər qazanılmış müvəffəqiyyətlər ilk növbədə Respublika rəhbərliyinin müəlliflik hüququ ilə bağlı uğurlu daxili və xarici siyasətinin təzahürudur. Beynəlxalq standartlara uyğun olaraq, milli müəlliflik hüququ institutu üç vacib tərkib hissədən ibarətdir:

- hüquqi-normativ baza (qanunvericilik aktları);
- icra mexanizmi (səlahiyyətli milli idarəetmə orqanı);
- hüquqların təminatı (üsullar, metodlar, proseduralar).

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun 8 oktyabr 1996-cı il tarixdən qüvvədədir. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1996-cı il tarixli Sərəncamının böyük əhəmiyyəti vardır. Nazirlər Kabinetinin 2 may 1997-ci il tarixli 38 $^{1}$-li Qərarı və bir sıra digər qərarlar müəllif-hüquq məsələlərinin həllində vacib rol oynayır. Azərbaycanın bu günkü müəllif hüququ müasir informasiya, ilk növbədə rəqəmli texnologiya və multmedia kompüter sisteminə əsaslanır. Milli müəllif-hüquq sistemi ÜƏMT-nın yaratdığı intellektual mülkiyyətin qlobal dünya sisteminə və INTERNET-ə qoşulmaq üçün

hazırlanmışdır. İlk dəfə olaraq Azərbaycan müəlliflərinə könüllü olaraq öz əsərlərini əlyazmasından başlayaraq CD ROM-lara qədər hər hansı maddi daşıyıcıda qeydiyyatdan keçirmək, Dövlət reyestrinə daxil etmək, kompüterdə saxlamaq və arxivləşdirmək imkanı yaradılmışdır. Əsərlərini qeydiyyatdan keçirən müəlliflərə "Qeydiyyat haqqında Şəhadətnamə" verilir. Agentliyin kompüter-TV-video-akustik sistem-skaner şəklində komplektləşdirilmiş multmediya sistemi radio - televiziya efirinin manitorinqini həyata keçirməyə, intellektual mülkiyyətin statistikası və müəllif - hüquq pozuntularının diaqnostikasının müxtəlif məsələlərini həll etməyə imkan verir. Son illər Azərbaycan rəhbərliyinin uzaqgörən daxili və xarici siyasəti nəticəsində məllif-hüquq sahəsində ölkəmizin beynəlxalq əlaqələri genişlənmiş, o, bir sıra Konvensiya və beynəlxalq təşkilatların üzvü olmuşdur. Azərbaycan 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvüdür. Ədəbi - bədii əsərlərin qorunması haqqında Bern Konvensiyasına və Müəllif hüququ haqqında Ümumdünya Konvensiyasına daxil olmuşdur. Bir sıra digər ikitərəfli və çoxtərəfli müqavilələrin iştirakçısıdır. Əlavə etmək lazımdır ki, beynəlxalq mübadilə və əlaqələrlə bağlı son vaxtlar Azərbaycanda bir sıra tədbirlər keçirilmişdir. O cümlədən: 1998-ci ildə Azərbaycanda ilk dəfə ÜƏMT ilə birgə keçirilən seminar-müşavirədə müəllif - hüquq məsələləri müzakirə edilmişdir. 1998-ci ildən yalnız Rusiya, Azərbaycan və Gürcüstanın daxil olduğu TACIS - əqli mülkiyyət Proqramı çərçivəsində 1999-cu ildə "Azərkinovideo" İB ilə birlikdə audiovizual əsərlərə həsr olunmuş seminar keçirilmişdir. 2000-ci ilin mart ayında Ədliyyə Nazirliyi ilə birlikdə keçirilən "Müəlliflik hüququ: onun qorunması və təminatı" mövzusunda beynəlxalq seminarda polis, məhkəmə və kömrük orqanlarının nümayəndələri də iştirak etmişlər.

Bu ilin may ayında ÜƏMT ilə birgə keçirilməsi planlaşdırılan "Müəlliflik hüququ və piratçılıqla mübarizə" mövzusunda Beynəlxalq seminarda müəllif - hüquq sisteminin müasir problemləri müzakirə ediləcək. Onu da xüsusi qeyd etmək lazımdır ki, hüquqi bazanın (hüquqların qorunma modelinin) və səlahiyyətli idarəetmə orqanının mövcudluğu ilə yanaşı, mütləq olaraq hüquqların təminatı da zəruridir. Mükəmməl qurulan sistem əgər hüquqi təminatı, hüquqların müdafiəsini nəzərdə tutmursa, heç cür öz funksiyalarını həyata keçirməyə qadir olmaz.

Əslində bu sahədə müdafiə olunan hüquq məkanı potensial hüquq pozanlar üçün profilaktik maneə, sipər kimi çıxış etməlidir. Bununla bağlı, Fransız yazıçısı Rene Şatobrianın: "Hüquq borcu doğmur, borc hüququ doğar" sözlərini təkrar etmək yerinə düşərdi. Dünyaya dahi Nizamini, Füzulini, Bakuvini, Tusini, Nəsimini, Xətaini, Vaqifi, Sabiri bəxş edən Azərbaycan cəmiyyəti bu gün də yaradıcı şəxslər qarşısında öz borcunu tam aydınlıqla dərk edərək, əqli mülkiyyət yaradıcılarına münasibətdə zəngin ənənələrini davam və inkişaf etdirir. Onu da qeyd emək lazımdır ki, əqli mülkiyyət və xüsusən də müəlliflik hüququ öz-özlüyündə çoxşaxəli bilik sahəsidir. Kompüter proqramları, məlumat bazaları, multimediya və s. də buraya daxildir. Bu elə fəaliyyət növüdür ki, onun tərkib hissələri özündə müxtəlif fəaliyyət başlanğıclarını təmsil edir: onun mahiyyəti menecer, texniki və humanitar

sahələrin məhsuludur, forması yalnız hüquqidir, təyinatı isə - iqtisadidir. Müəlliflik hüququnun təbiəti - müstəsnadır. Hüquqların pozulması iki istiqamətdə mövcuddur: əqli zəhmətin nəticələrini tam və yaxud qismən mənimsənilməsi - plagiat və əqli nəticələrin icazəsiz istifadəsi - kontrafaksiya. Bunların müdafiə mexanizmi mülki, inzibati və cinayət məsuliyyətini nəzərdə tutur.

Beləliklə, yaradıcılıq imkanları Tanrıdan verilmiş, şəxsiyyətdən ayrılmaz varidatdır və elə bu da müəllifin şəxsi müəlliflik hüququ deməkdir. Yaradıcı şəxs konkret mahiyyətlərin fəlsəfəçisi, abstrakt mahiyyətlərin isə rəngkarıdır. Yaradıcısından ayrılan əsər öz "müstəqil", sərbəst dövranına başlayarkən dövlətin və cəmiyyətin müəllifə, onun şəxsiyyətinə göstərdiyi ehtiram müəllifin həmin əsərə hüququnun tanınmasında təzahür edir. Müəlliflik hüququnun əsasını isə məhz bu təşkil edir.

«Musiqi dünyası» jurnalı, №2, 2000-ci il